+

# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

# Ə M R

№ 28

Bakı şəhəri "27" aprel 2017 il

**"IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi ilə əlaqədar səhiyyə orqan və müəssisələri üzrə iş vaxtı rejiminin tənzimlənməsi barədə"**

2017-ci ildə Bakı şəhərində IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12.04.2017-ci il tarixli 247-s nömrəli Sərəncamının 5.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Oyunlar zamanı yarana biləcək halların operativ həllinin təmin edilməsi ilə bağlı nazirlikdə cari ilin 5-25 may tarixlərində 24 saat ərzində fəaliyyət göstərən Qərargah yaradılsın (əlavə olunur).

2. "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Aparatında çalışan işçilərin 2017-ci ilin may ayının 1-dən 30-dək iş vaxtı rejimi" təsdiq edilsin (əlavə olunur).

3. Səhiyyə Nazirliyinin Bakı şəhərində fəaliyyət göstərən bütün müəssisə və təşkilatlarının rəhbərlərinə tapşırılsın:

3.1. 2017-ci ilin may ayının 1-dən 30-dək rəhbərlik etdikləri qurumlarda çalışan işçilərin (növbəli iş vaxtı rejimi əsasında və təhsil müəssisələrində işləyənlər istisna olunmaqla) əmək funksiyalarını nəzərə almaqla, iş vaxtı rejimi aşağıda göstərildiyi kimi pilləli şəkildə təşkil edilsin:

3.1.1 işçilərin 25 faizi üçün saat 8:00-dan saat 17:00-dək;
3.1.2.İşçilərin 25 faizi üçün saat 8:30-dan saat 17:30-dək;
3.1.3. işçilərin 25 faizi üçün saat 9:00-dan 18:00-dək;
3.1.4. İşçilərin 25 faizi üçün saat 9:30-dan saat 18:30-dək;
3.2. işçilər tərəfindən iş vaxtı rejiminə əməl edilməsi şəxsi nəzarətə götürülsün;
3.3. bu əmrin icrası barədə Səhiyyə Nazirliyinə 3 gün müddətində məlumat təqdim edilsin.

4. Ümumi şöbənin müdiri L.Əli-zadəyə tapşırılsın ki, Səhiyyə Nazirliyi Aparatının işçiləri yeni iş vaxtı rejimi ilə tanış edilsin.

5. Əmrin icrasına nəzarət Aparatın rəhbəri Z.Mustafayevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin
27.04. 2017-ci il tarixli 28 nömrəli əmrinə
əlavə

**IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi ilə əlaqədar Səhiyyə Nazirliyinin Qərargahı:**

1. Zəkiyyə Mustafayeva - Aparatın rəhbəri
2. Viktor Qasımov – Sanitariya-epidemioloji nəzarəti sektorunun müdiri
3. Gülmirzə Poladov – Tibbi yardımın təşkili şöbəsinin müdiri
4. Ləman Əlizadə - Ümumi şöbənin müdiri
5. Məmməd Cəfərov – Bakı Baş Səhiyyə İdarəsinin rəis müavini